№45-46 Ədəbiyyat QƏZETİ
18 28 noyabr 2025-ci il

# *Reyhan* YUSİFQIZI-60



İstedadlı yazıçı Reyhan Yusifqızını yubileyi münasibətilə təbrik edirik.

Reyhan Yusif qızı Şıxlinskaya 1965-ci il noyabrın 13-də Bakıda anadan olub. 1982-ci ildə Bakı şəhərindəki 5 saylı orta məktəbi bitirib. 1982-ci ildə Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsinə daxil olub, 1987-ci ildə həmin Universiteti fərqlənmə diplomu ilə başa vuraraq, Azərbaycan Milli Elmlər Akademiyasının Kibernetika İnstitutuna təyinat alıb. 1990-cı ildən Bakı Dövlət Universitetində dərs deyir. 2007-ci ildə dissertasiya müdafiə edərək, riyaziyyat üzrə fəlsəfə doktoru alimlik dərəcəsi alıb. 60-dan çox məqalə və tezisin, həmçinin riyaziyyat sahəsində üç kitabın müəllifidir. "Zadə irsi və süni intellekt" Assosiasiyasının üzvüdür, Soft Kompüting nəzəriyyələrini tədris edir. Elmin İnkişafı Fondunun və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Elm Fondunun dəstəyi ilə yerinə yetirilən bir neçə layihənin rəhbəri və ya aparıcı əməkdaşı kimi fəaliyyəti qeyd olunmalıdır.

Reyhan Yusifqızı 1995-ci ildən bədii yaradıcılıqla məşğuldur. Yüzdən çox povest və hekayənin, nağıl, elmi-kütləvi və elmi-fantastik kitablar seriyasının müəllifidir. Daha çox uşaq yazıçısı kimi tanınır. Orta məktəb dərsliklərində bir sıra əsərləri tədris edilir. Azərbaycan uşaq ədəbiyyatında intellektual nəsrin maraqlı nümunələrini yaradıb. Elmi-fantastik trilogiya təşkil edən "Yaşıl gözlü qız", "Zamanın əsirləri", "Uzaq planetin sirri" kitablarının, həmçinin süni intellektə həsr olunmuş "Dostum Mimi", "Diribaş qızlar klubu", "Qapı arxasında o", "Yağışın altında", "Bir şəhər, bir liman", "The mystery of a distant planet" kimi kitabları böyük maraqla qarşılanıb.

Ədəbi uğurları respublika Mədəniyyət Nazirliyinin "Qızıl Kəlmə" ədəbi mükafatı, Bədii və animasiya filmi ssenariləri müsabiqəsinin "Animasiya" üzrə mükafatı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Azərbaycan Yazıçılar Birliyi ilə birgə elan etdiyi "Koronavirus pandemiyası ilə mübarizə" mövzusunda hekayə müsabiqəsinin xüsusi mükafatı, Təhsil Nazirliyinin "Kiçikyaşlı məktəblilər üçün ən yaxşı nəsr, nəzm və dram əsərləri" müsabiqəsinin mükafatı, Avrasiya Yazarlar Birliyinin V Beynəlxalq Mahmud Kaşğari hekayə müsabiqəsinin mükafatı ilə dəyərləndirilib.

Hörmətli Reyhan xanımı bir daha yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**